

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 49 (21.459)

*15 mart 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Yan Hamaçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədrinin böyük nümayəndə heyəti ilə Bakıya səfərini iki ölkə arasında qarşılıqlı maraq doğuran məsələləri yenidən nəzərdən keçirmək, əlaqələrimizin inkişafına təkan vermək və gələcəkdə görülə biləcək işləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığını vurğulayıb.

Ölkəmizə sonuncu dəfə Bakıda keçirilən birinci Avropa Oyunları zamanı səfər etdiyini məmnunluqla xatırlayan qonaq Oyunların qısa müddət ərzində yüksək səviyyədə təşkili münasibətilə ölkəmizi və şəxsən Prezident İlham Əliyevi bir daha təbrik edib. Bakının artıq Avropanın idman paytaxtına çevrildiyini qeyd edən Yan Hamaçek ölkəmizdə bu dəfə Formula 1 yarışlarının keçirilməsinin bunun daha bir göstəricisi olduğunu deyib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti ətrafında fikir mübadiləsi aparılıb, iki ölkə arasında bir sıra sahələrdə, o cümlədən enerji, bank sektoru, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

## R.V.Hüseynovun Naxçıvan Muxtar Respublikasının Babək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Rasim Vaqif oğlu Hüseynov Naxçıvan Muxtar Respublikasının Babək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 14 mart 2016-cı il*

## E.M.Hüseynəliyevin Naxçıvan Muxtar Respublikasının Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Elçin Məmməd oğlu Hüseynəliyev Naxçıvan Muxtar Respublikasının Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 14 mart 2016-cı il*

## R.V.Hüseynovun Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rasim Vaqif oğlu Hüseynov Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 mart 2016-cı il*

## Partiya təşkilatı hesabat konfransına hazırlaşır

Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında keçirilən tədbir yanvarın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun sədrliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 2015-ci ildəki fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən iclasda partiya təşkilatlarının qarşısında qoyulan vəzifələrə həsr olunmuşdu. Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev bildirmişdir ki, 2016-cı ildə partiya təşkilatlarında hesabat konfransları keçiriləcək. Konfranslaradək nizam-intizamın gücləndirilməsi, partiya üzvlərinin nəzəri biliklərinin artırılması, partiyanın yerli orqanları ilə dövlət orqanları arasında əlaqələrin gücləndirilməsi, qadınlar şuraları ilə işin təşkilinin müasir tələblər səviyyəsində qurulması, partiyaya yeni qəbul edilmiş üzvlərlə sistemli işin davam etdirilməsi, gənclərin partiya təşkilatlarının rəhbər qurumlarında təmsilçiliklərinin artırılması məqsədilə onların layiqli kadrlar kimi yetişdirilməsi üçün partiyanın sosial-siyasi cəhətdən fəal gəncləri haqqında məlumat-informasiya bazasının yaradılması və digər məsələlər bir vəzifə olaraq qarşıya qoyulmuşdur. Bu vəzifələrin yerinə yetirilməsində hər bir partiya üzvü böyük məsuliyyət daşıyır.

Qeyd olunmuşdur ki, ötən dövr ərzində adıçəkilən istiqamətlər üzrə rayon təşkilatı tərəfindən xeyli iş görülmüş və görülməkdədir. Partiya üzvləri, xüsusilə gənclər və qadınlar qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində öz məsuliyyətlərini dərindən dərk etməklə fəallıq göstərirlər.

Yığıncaqda partiya fəallarından Eldar Zeynalovun, Rəhim Əsədovun, Etibar İsmayılovun, Azər Əliyevin və başqalarının çıxışları olmuşdur.

Çıxışlarda vurğulanmışdır ki, konfransadək qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün bütün partiya üzvləri əlbir fəaliyyəti davam etdirəcək, konfransda rayon təşkilatının yeni rəhbər strukturlarının – idarə heyətinin, şuranın, qadınlar şurasının, gənclər birliyinin formalaşdırılması zamanı nüfuzlu şəxslərin, fəal və əqidəli gənclərin seçilməsinə nail olunacaq.

**Xəbərlər şöbəsi**

## Fevral ayında muxtar respublikada nəqliyyat xidməti nümunəvi təşkil olunub

*Muxtar respublikada nəqliyyat sahəsində işlər günün tələblərinə uyğun qurulur. 2016-cı ilin fevral ayında bu sahədə mühüm işlər görülmüş, əhaliyə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsi yüksəldilmişdir.*

Muxtar respublikada nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, yüksək standartlara cavab verən avtobusların alınıb gətirilməsi bu sahədə sərnişinlərə göstərilən xidmətin keyfiyyətinin artırılmasına şərait yaratmışdır. Ötən ay İran İslam Respublikası ərazisindən keçərək Bakıya və əks istiqamətə hərəkət edən marşrutların da fəaliyyəti diqqət mərkəzində saxlanılmış, 63 reys vasitəsilə 1668 nəfər Naxçıvan-Bakı, 1937 nəfər isə Bakı-Naxçıvan istiqamətində daşınmışdır.

Ötən ay daxili sərnişindaşımalarının da fasiləsiz fəaliyyəti təmin edilmiş, 138 marşrut xəttində fəaliyyətdə olan 303 avtobus, həmçinin 487 taksi vasitəsilə rayon mərkəzləri və kəndlərin hamısına avtonəqliyyat xidməti göstərilmişdir. Payız-qış mövsümündə problemlərin yaranmaması məqsədilə verilən tapşırıqların icrası fevral ayında da uğurla yerinə yetirilmiş, avtovağzalların fəaliyyəti daim nəzarətdə saxlanılmış, marşruta buraxılan nəqliyyat vasitələrinin texniki sazlığına diqqət artırılmışdır. Şəhərdaxili və rayonlararası fəaliyyət göstərən avtobuslara gündəlik texniki baxış keçirilmiş, nasaz hissələri təmir edilmişdir. Həmçinin beynəlxalq sərnişindaşımalarda istifadə olunan avtobuslarda təhlükəsizlik tədbirləri gücləndirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda bayram yarmarkası keçirilir

Novruz xalqımızın ən qədim və dəyərli bayramlarındandır. Hamı çalışır ki, bu bayramda süfrəsi bol olsun. Ona görə də ailələr tərəfindən müxtəlif şirniyyatlar hazırlanır, səmənilər cücərdilir, digər işlər görülür. Bir neçə ildir ki, Naxçıvan şəhərində bayramqabağı təşkil olunan yarmarkalar bu əziz bayramı layiqincə qeyd etməyə imkan verir. Martın 12-dən başlayaraq Naxçıvan şəhərindəki Mərkəzi bazarda ənənəvi bayram yarmarkasının təşkilində əsas məqsəd də süfrələrimizdə əsl bayram bolluğu yaratmaqdır. Şənbə və bazar günlərində olduğu kimi, bazar ertəsi günündə də yarmarkaya gələnlərin sayı az deyildi. Şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınması məqsədilə keçirilən bayram yarmarkasına dünən 59 sahibkarlıq subyekti tərəfindən 116 adda, 230 çeşiddə məhsul çıxarılmışdı. Bundan əlavə, yarmarkada fermerlərə və digər torpaq mülkiyyətçilərinə yaradılmış şərait kənd təsərrüfatı məhsulları satıcılarının da ürəyincə idi. Babək rayonunun Zeynəddin kəndindən cəviz, badam, armud satmağa gətirmiş Qəndab Əliyeva onlar üçün yaradılan şəraitdən razılıq etdi. Bildirdi ki, məhsulunu satmaq üçün burada piştaxta və elektron tərəzi ilə təmin olunub. Məhsulun satışından da razıdır. Dedi ki, hər kəs bu bayram günündə süfrəsinin bol olmasını istəyir. Digər satıcı Məhəmmədəli Məmmədov isə Kəngərli rayonunun Xok kəndindən məhsul gətirmişdi. Satdığı pendir, şor, yağ öz təsərrüfatındandır. Müsahibimiz bildirdi ki, bu cür yarmarkaların təşkili fərdi təsərrüfat sahiblərinə öz məhsullarını satmaq üçün hərtərəfli şərait yaradır. Hamı çalışır ki, yerli məhsul alsın, çünki yerli məhsullarımızın tamını heç nə ilə müqayisə etmək mümkün deyil. Bu fikirlərə Culfa rayonunun Bənəniyar kəndindən məhsul gətirmiş Tahir Əsgərov da qoşuldu. Dedi ki, son bir neçə ildir, Naxçıvan şəhərində təşkil olunan bayram yarmarkasına məhsul satmağa gəlir: “Naxçıvan şəhərində belə bir bayram yarmarkasının təşkil olunması həm bizim kimi torpaq mülkiyyətçilərinə, həm



də alıcılara şərait yaradır. Artıq bir neçə ildir ki, mən halal zəhmətlə əldə etdiyim məhsulları satmaq üçün bura gətirirəm. Bu il də xeyli məhsul gətirmişəm. İki saat müddətində gətirdiyim ağartı məhsullarından, kişmişdən xeyli satmışam. Yəqin ki, yaxın bir saat ərzində tamamilə qurtararam. Bizə yaradılmış bu şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm”.

Yarmarkaya gələn paytaxt sakinləri də yaradılmış şəraitə görə razılıqlarını bildirirdilər. Şəhər sakini Fətulla Şirzadov dedi ki, muxtar respublikanın müxtəlif yerlərindən yarmarkaya gətirilən məhsullar həm keyfiyyəti, həm də qiymətinin ucuzluğu ilə diqqət çəkir. Həmsöhbətimiz bildirdi ki, neçə illər bundan əvvəl bayrama hazırlaşarkən xeyli çətinliklərlə üzləşirdik. Aldığımız məhsulların çoxu xarici ölkələrdən gətirilmiş məhsullar idi. Ancaq şükürlər olsun ki, indi hər kəsin istədiyi növdə və çeşiddə ala biləcəyi yerli məhsullarımız var.

Məlumat üçün bildirək ki, Naxçıvan şəhərindəki Mərkəzi bazarda təşkil edilmiş yarmarka martın 19-dək davam etdiriləcək.

✍ **Səbuhi HƏSƏNOV**

15 mart Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günüdür

# Muxtar respublikada istehlakçı hüquqlarının müdafiəsi diqqət mərkəzindədir

***İstehlakçı Hüquqlarının Müdafiəsi Gününün qeyd olunması dünya ictimaiyyətinin diqqətini istehlakçıların hüquqlarının qorunması problemlərinin həllinə yönəltməkdən ibarətdir.***

Azərbaycanda istehlakçı hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin təşəbbüsü ilə 1995-ci il sentyabrın 19-da "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu dövrdən başlayaraq ölkəmizdə istehlakçı hüquqlarının qorunması sahəsində məqsədyönlü və ardıcıl işlər həyata keçirilmiş, bu sahəni tənzimləyən qanunvericilik bazası yaradılmış, istehsalçı və istehlakçı münasibətləri dünya təcrübəsinə uyğunlaşdırılmışdır. "Antiinhisar fəaliyyəti haqqında", "Yeyinti məhsulları haqqında", "Haqsız rəqabət haqqında", "Standartlaşdırma haqqında", "Taxıl haqqında", "Reklam haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi də istehlakçıların hüquqlarının müdafiəsi sahəsində mühüm əhəmiyyətə malik olmuşdur.

Ölkəmizin sosial-iqtisadi inkişafı muxtar respublikada da bütün sahələri əhatə etmişdir. Yeni iş yerlərinin açılması, istehsal və xidmət sahələrinin yaradılması istehlakçı hüquqları üzrə aparılan işlərin də davamlı inkişafını şərtləndirir. Buna görə də Naxçıvan Muxtar Respublikasında keyfiyyətə nəzarət işi, standartlaşdırma, akkreditasiya, metrologiya, uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyət günün tələblərinə uyğun qurulur. Muxtar respublika iqtisadiyyatının sürətli inkişafı, istehsal müəssisələrinin müasir maddi-texniki baza ilə təchiz olunması beynəlxalq tələblər səviyyəsində qəbul edilən yeni standartların tətbiqinə geniş imkanlar açmışdır. Naxçıvanda istehsal olunan məhsulların yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli olması, görülən işlərin və göstərilən xidmətlərin müasir standartlara cavab verməsi qarşıda duran prioritet vəzifələrdəndir.

Bu gün muxtar respublikada yerli istehsalın inkişafı strategiyasına uyğun olaraq 119 növdə, 513 çeşiddə ərzaq, 242 növdə, 603 çeşiddə qeyri-ərzaq məhsulları istehsal olunur. 107-si ərzaq və 236-sı qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Yerli istehsalın daim dəstəklənməsi daxili bazarın qorunması, xaricə valyuta axınının qarşısının alınması, idxaldan asılılığın aradan qaldırılması və istehlakçı hüquqlarının qorunması baxımından əhəmiyyətlidir. Bu gün muxtar respublikada istehsal, ticarət, ictimai iaşə və xidmət sahələrində görülən işlərin, göstərilən xidmətlərin və istehsal olunan məhsulların normativ-texniki sənədlərin tələblərinə uyğunluğu, insanların həyatına, sağlamlığına, əmlakına zərər vura biləcək məhsulların, işlərin və xidmətlərin qarşısının alınması, istehlak bazarının keyfiyyətsiz mallardan qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Təkcə 2015-ci ildə bu məqsədlə 598 ticarət, xidmət, iaşə və istehsal müəssisəsində monitorinqlər aparılmış, müxtəlif maarifləndirici tədbirlər görülmüşdür.

Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan dövlət nəzarətinin bir hissəsini də ölkədə istehsal və idxal olunan məhsulların fiziki-kimyəvi və mikrobioloji göstəricilərinin yoxlanması təşkil edir. Bu məqsədlə idxal və yerli istehsal mallarından nümunələr götürülərək keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi məqsədilə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin laboratoriyasında mütəmadi analiz olunur.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının və antiinhisar qanunvericiliyinin pozulması hallarının qarşısının alınmasıdır. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi bu mühüm vəzifənin icrasını təmin etmək məqsədilə təxirəsalınmaz tədbirlər görür. Ötən müddət ərzində muxtar respublikanın ərazisində istehlak mallarının qiymətlərinə nəzarət edilməsi və süni bahalaşmaya yol verilməməsi məqsədilə işçi komissiyası yaradılmışdır. Komissiya istehlak bazarına daim nəzarət edir, süni qiymət artımının, süni mal qıtlığının və digər sui-istifadə hallarının qarşısının alınması məqsədilə ardıcıl tədbirlər görür. Ticarət obyektlərinin ərzaq və qeyri-ərzaq məhsulları ilə təchiz edilməsinə nəzarət olunması məqsədilə araşdırmalar aparılır və bu zaman aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılır.

Mövsümi qiymət artımının qarşısının alınmasında, əhalinin davamlı keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasında soyuducu anbarların və istixana komplekslərinin rolu böyükdür. Bu məqsədlə muxtar respublikada ümumi tutumu 13 min tona yaxın olan 22 soyuducu anbar istifadəyə verilmişdir. Muxtar respublikada payız-qış mövsümünə hazırlıqla bağlı görülən tədbirlər nəticəsində anbarlara tədarük olunan 6170,4 ton məhsulun satışı həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, əhalinin tələbatının dolğun ödənilməsi, süni qiymət artımının qarşısının alınması məqsədilə Naxçıvan şəhərinin Xətai küçəsində yerləşən Mərkəzi bazarda gündəlik kənd təsərrüfatı məhsullarının və emal sənayesi məhsullarının satışı yarmarkası təşkil olunur. Ötən il yarmarkada istehsalçılar tərəfindən əhaliyə 2470 ton kənd təsərrüfatı və sənaye məhsullarının müvafiq olaraq 10-30 faiz ucuz qiymətlərlə satışı həyata keçirilmişdir.

***Bu gün muxtar respublikada istehlakçıların hüquqları aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları tərəfindən etibarlı şəkildə qorunur. Ancaq istehlakçıların hüquqlarının qorunması yalnız dövlətin deyil, vətəndaşların da üzərinə düşən mühüm vəzifələrdəndir. Hər kəs bir istehlakçı kimi öz hüquqlarını yaxşı bilməlidir. Daxili bazarın və istehlakçı hüquqlarının qorunması, standartlaşdırma sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər bundan sonra da davam etdiriləcəkdir.***

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Şahbulağın şad günləri

## *Bu yaşayış məntəqəsi müasir Azərbaycan kəndinin canlı nümunəsidir*

## *(Reportaj)*




***Şərur rayonunun Şahbulaq kəndi haqqında ətraflı məlumatım var idi. Bilirdim ki, hər tərəfdən dağlarla əhatələnmiş bu yaşayış məntəqəsi Ermənistanla sərhəddə yerləşir. Sakinlərinin, əsasən, maldarlıq və bağçılıqla məşğul olduqları Şahbulaq ermənilərin Azərbaycan torpaqlarına 1988-ci ildən başlanan hücumlarının ilk hədəflərindən biri olub. Kəndin mərd oğulları düşmənin bütün həmlələrinə sinə gərərək qədim yurd yerlərini qoruyub, onun sinəsinə düşmən ayağı dəyməsinə imkan verməyiblər.***

Vaxtilə gözdənuzaq, könüldən iraq olan Şahbulaqda 2013-cü il dekabr ayının 3-də yeni məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Şahbulaq kəndində abadlıq işləri də aparılıb, 7 min metrdən artıq fiber-optik, 2300 metr elektrik və 300 metr qaz xətti çəkilib. Kəndin 380 metr içməli su xətti təmir edilib, kənddaxili məhəllələrdə yol kənarları boyu 150 metr hasar çəkilib. Bu quruculuq tədbirləri kəndin simasını tamamilə dəyişib.

Ancaq biri var, eşidəsən, biri də var ki, gözünlə görəsən. Ötən günlərin birində yolum bu qədim sərhəd yaşayış məntəqəsinə düşdü. Rayonun Gümüşlü kəndi ərazisindən ayrılan Şahbulaq yolu sanki uca dağları kəsib keçir. Bu dağlara baxarkən yadıma görkəmli şairimiz Məmməd Arazın "Qayalarda bitən çiçək" ifadəsi düşdü. Burada heç bir bəlağət yoxdur. Doğrudan da dağ yamaclarında daş arasından boylanan gül-çiçəklər insana yüksək əhval-ruhiyyə bəxş edir. Müasir tələblər səviyyəsində yenidən qurulmuş yolun sərnişini olmaq da ovqatımıza əlavə çalarlar qatır. Kəndin girəcəyindən üzüyuxarı qalxırıq. Xidmət və kənd mərkəzləri, məktəb binası diqqəti cəlb edir. İlk olaraq həmin obyektlərdən birinə – kənd mərkəzinə baş çəkirik. Binada bizi kənd mədəniyyət evinin müdiri Rövşən Qafarov qarşılayır. Çoxdankı tanış kimi bizimlə hal-əhval tutur. Kənd adamının bu səmimi münasibətindən istifadə edib ondan bizi Şahbulaqda hansısa bir ailə ilə həmsöhbət olmağa kömək etməsini xahiş edirik. Rövşən gülümsünərək: – elə bizə getsək lap yaxşı olar, atam da dünyagörmüş adamdır, Şahbulağın dünənini də görüb, bu gününü də görür, – deyib qolumuza girir.

Dağ ətəyində salınmış böyük və meyvə ağacları ilə dolu olan həyət evi. Bu il yaz bu dağ kəndinə də bir qədər tez gəlib. Ağacların bəziləri çiçək donunu geyinib. Evə keçirik. Bizi elə qapı ağzında Rövşənin atası Sadıq kişi qarşılayır. Ömrünün doqquzuncu onilliyini yaşayan el ağsaqqalı xoş bir təbəssümlə "xoş gəldiniz", – deyir. Arxasınca onun ömür-gün yoldaşı Zeynəb xala da "xoş gəldin" edir. Evdə Novruz bayramının ətrini duymaq çətin deyil. Stolun üstündə üç sinidə səməni qoyulub. Meyvələr, bayram üçün ən əziz şirniyyat olan paxlava, şəkərbura insanın iştahasını artırır. Ailəni bayram münasibətilə təbrik edirik. Sadıq kişi hal-əhval tutduqdan sonra:

– Bu əziz bayram ərəfəsində bütün evlərə xoş günlər arzulayıram. Gün o gün olsun ki, bu əziz günü işğal altında olan torpaqlarımızda keçirək. O gün bu bayramın ləzzəti daha böyük olacaq, – deyir. Bir qədər nə isə fikirləşir, sonra soruşur:

– Gəldiyiniz yol sizi yormadı ki? – gülərək öz sualına özü cavab verir: – yormaz. Məsafə uzaq da olsa, yollarımız şəhər yollarından seçilmir. Əslində, heç uzaq da deyil. Naxçıvan şəhərindən gəldiyinizə görə sizə uzaq görünə bilər. Şahbulaqla Şərur şəhərinin arası 22 kilometrdir. Üç il əvvəl kənddə çox açılışlar oldu. Yolumuzu da elə onda təzələdilər. İndi nə bu kəndə gələn qonaqlar, nə də onları bura gətirən maşınların sürücüləri heç bir narahatçılıq keçirmirlər. Deyirlər ki, Naxçıvanın bütün dağ kəndlərinin yolları indi belədir.

Rövşən deyir ki, Şahbulaqda yenidənqurma işləri aparılan vaxt yolu bir qədər genişləndiriblər, yeni asfalt örtük salıblar. Kənddaxili yol da təmir olunub, su keçidləri qoyulub. Üç körpü salınıb, istinad divarı tikilib, beton kanal çəkilib.

Bu vaxt evin qapısı döyülür. Evin kiçiyi Sadıq (Rövşən oğluna atasının adını verib) durub qapını açır. Gümüşlü (Şahbulaq Gümüşlünün tərkibindədir) kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Rafiq Məmmədov və məktəbin direktoru Salman Cəfərov burada olduğumuzu eşidib bizimlə görüşməyə gəliblər. Onlarla haradan söhbətə başlamaq barədə düşünürəm. Deyəsən, fikrimdən keçənləri hiss ediblər. Elə yenə Sadıq kişi söhbətə başlayır:

– Kəndimizin indiki görkəminə baxanda yadıma Naxçıvanın 20-25 il bundan əvvəlki çağları düşür. O barədə çox danışmaq, sizi də yormaq istəmirəm. Ancaq deməsən də olmur axı. Qoy bugünkü nəsil də bilsin ki, necə dövrdə yaşayırlar. Nə isə... Altı da, üstü də ruzi-bərəkətlə dolu olan Naxçıvanda o vaxt yaşamaq günü-gündən çətinləşirdi. Bədnam qonşular öz arzularına çatmaq üçün ortaya atılandan sonra vəziyyət lap pisləşdi. Yolların bağlanması bir tərəfdən, işığın, qazın olmaması bir tərəfdən işimizi çətinləşdirdi. Həyətlərdə ağac qoymadıq qalsın. Uşaqlar üşüməsinlər deyə, qabağımıza keçən cavan ağacları belə, kəsirdik. Həyətdə gördükləriniz ağaclar hamısı cavan ağaclardır. Kəndə qaz çəkiləndən sonra əkmişik. Bir neçə ildir ki, məhsul verirlər.

Zeynəb xala ömür-gün yoldaşına üzünü tutur:

– Ay Sadıq, imkan ver qonaqlar çaylarını içsinlər, yol gəliblər. Keçənləri çox qurdalama, bu gündən danış. Odur bax, evdən də görünən təzə məktəb binası, idarə, dükanlar. Onlardan danış...

Balaca Sadıq nənəsinin sözlərindən ruhlanır:

– Məktəbimizi görmüsünüz? Mən də gələn il orada oxuyacağam. Yaxşı oxuyacağam. Dərslərimdən 5 alacağam.

Bu dilli-dilavər uşağın sevincini mən də yaşayıram. Yadıma özümün orta məktəbdə oxuduğum illər düşür. Çiy kərpicdən olan məktəb binası kənd camaatının gücü ilə tikilmişdi. Qışı soyuq, tozlu-torpaqlı sinif otaqları burada təhsilin tələb olunan səviyyədə qurulmasına imkan vermirdi. İndi o məktəbin yaxınlığında arxitekturası ilə gözoxşayan ikimərtəbəli bina tikilib. Qürurverici hal ondadır ki, bu gün muxtar respublikanın, demək olar ki, bütün yaşayış məntəqələrində belə təhsil ocaqları var. Bu da xalqın gələcəyinə ünvanlanmış quruculuq tədbiridir və Şahbulaq kəndi də istisna deyil...

Məni bu düşüncələrdən Şahbulaq kənd tam orta məktəbinin direktoru Salman Cəfərovun söhbəti ayırır. Salman müəllim deyir ki, yeni məktəb binası 110 şagird yerlikdir. Binada 11 sinif otağı, müxtəlif fənn laboratoriyaları, hərbi kabinə, müəllimlər otağı, idman zalı və bufet istifadəmizə verilib. Zəngin kitabxanamız var. İnformatika dərslərinin daha səmərəli keçilməsi üçün imkan yaradılıb. Kompüter otağında müasir kompüter dəstləri quraşdırılıb, internetə qoşulub. Üç elektron lövhəli sinif də şagirdlərə dövlətimizin hədiyyəsidir.

Şahbulaq kəndində həyata keçirilən kompleks quruculuq işləri çərçivəsində yeni kənd mərkəzinin də inşa olunduğunu bildirən Rafiq Məmmədov söhbətə qoşulur:

– Şahbulaqdan əvvəl Gümüşlüdə kənd mərkəzi tikilsə də, şahbulaqlıların problemlərinin yerindəcə həll olunması məqsədilə bu kənddə də belə obyektin həyata vəsiqə alması dövlətimizin bu yaşayış məntəqəsinin sakinlərinə böyük qayğısı və töhfəsidir. Müasir standartlara uyğun inşa edilən ikimərtəbəli binada kitabxana, polis sahə məntəqəsi, baytar otağı, rabitə evi, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, feldşer-mama məntəqəsi, mədəniyyət evi və 55 yerlik iclas zalı yerləşir. Bu qurumlarda çalışanlar üçün müasir iş şəraiti yaradılıb.

Zeynəb xala isə kənd mərkəzində istifadəyə verilən və mərkəzin birinci mərtəbəsində yerləşən feldşer-mama məntəqəsinə görə minnətdarlığını bildirir.

Məlumat üçün onu da deyək ki, mərkəzdəki rabitə evində yeni ATS quraşdırılıb, poçt bölməsi yaradılıb. Poçt bölməsində məktub və banderolların, teleqramların qəbulu və göndərilməsi, pul baratlarının qəbulu və ödənişi, qəzetlərin, müxtəlif növ danışıq və internet kartlarının satışı həyata keçirilir, kənd əhalisinə bank xidməti göstərilir.

Şahbulaqlılara dövlət qayğısının bir ifadəsi də kənddə xidmət mərkəzinin istifadəyə verilməsidir. Mərkəzdə ərzaq mağazası, ət satışı yeri fəaliyyət göstərir. Burada bərbərxana və qadın gözəllik salonu da var.

Bayram ovqatlı Şahbulaqdan ayrılarkən düşüncələrimə hakim kəsilən bir qənaətlə, yəqin ki, oxucular da razılaşarlar: Bu gün muxtar respublikada şəhərlə kənd arasında olan fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər regionumuzda bərqərar olunmuş sabitliyin, sosial-iqtisadi inkişafın bəhrələridir. Şahbulaq kəndi də bu cəhətdən istisna deyil.

**Şahbulaqda gördüklərimi evdə danışanda Naxçıvan şəhərindəki Qızlar Liseyinin VI sinfində oxuyan nəvəm İnci dedi:**

**– Ora şəhərdir ki, baba...**

**Bəli, bu gün muxtar respublikamızın bütün kəndləri şəhər timsallıdır. Bütün bunlar doğma diyara yurd sevgisinin ifadəsi, bu günümüzə, sabahımıza cavabdehlik hissinin nəticəsidir.**

**Muxtar MƏMMƏDOV**

*Naxçıvan zəngin tarixə və mədəniyyətə malik qədim oğuz yurdudur. Bu zənginliyə diyarımızın hər qarış torpağında rast gəlmək mümkündür. Qədim yaşayış yerləri, nekropollar, məscid və hamamlar, xanəgahlar, pir və ziyarətgahlar, qala və karvansaraylar Naxçıvanın uzaq keçmişindən günümüzədək köksündə yaşatdığı çoxsaylı tarixi abidələrdir. Belə abidələr içərisində diqqəti çəkən əhəmiyyətli tikililərdən biri də körpülərdir. Tarixdən məlumdur ki, Böyük İpək Yolu üzərində yerləşən Naxçıvan ticarətin, elm və mədəniyyətin sürətlə inkişaf etdiyi mərkəzlərdən sayılıb. Bu amil diyarın tikililərinə də təsirsiz ötüşməyib. Xüsusilə orta əsrlərdə burada yeni yolların salınması, körpülərin tikilməsi diqqət mərkəzində olub. Bəs bu körpülər haqqında nə dərəcədə məlumatlıyıq? Bu yazıda Naxçıvan Abidələri Ensiklopediyasına istinad edərək oxucularımıza Naxçıvanın tarixi körpüləri haqqında məlumat verməyi qərara aldıq.*

*Memarlıq inciləri*

# Naxçıvanın qədim *körpüləri*



*Aza körpüsü*



*Qazançı körpüsü*

Muxtar respublika ərazisindəki tarixi körpülər içərisində aşırımlarının sayına görə ən böyüyü olan *Aza körpüsü* Ordubad rayonunun Aza kəndində Gilançayın üzərində XVII əsrdə salınmış memarlıq abidəsidir. Aza kəndi ilə Darkəndi birləşdirən bu körpünün eni 3,5 metr, uzunluğu isə 46 paqonometrdir. Körpü beş aşırımlıdır. Qırmızımtıl rəngli yonulmuş yerli dağ daşından inşa edilmişdir. Körpü inşa edilərkən ərazi nəzərə alınmış, tağlar arasındakı məsafə müxtəlif ölçülərdə qoyulmuşdur. Tağların dördündə dalğakəsən vardır. Hindistanı və Çini Qara dəniz sahilləri və Avropa ölkələri ilə birləşdirən mühüm ticarət-karvan yolu üzərində yerləşən Aza körpüsü Böyük İpək Yolu ilə Şərqdən Qərbə və əksinə hərəkət edən ticarət karvanlarının işini asanlaşdırmaq üçün Səfəvi hökmdarı I Şah Abbasın zamanında (1587-1629) inşa edilmişdir. Buradan keçən ticarət karvanları ilə yerli məhsullar, o cümlədən quru meyvələr, sənətkarlıq məhsulları, ipək ixrac olunurdu. Körpü baş verən təbii fəlakətlər və bəzi tarixi hadisələr nəticəsində dəfələrlə dağılmış, sonralar təmir edilmişdir. Güclü sel suları körpünün bir hissəsini yuyub dağıtdığından bu abidə 1997-ci ildə əsaslı şəkildə bərpa olunmuşdur.

Gilançayın üzərində salınmış digər körpü isə *Biləv körpüsü*dür. Bu körpü beşaşırımlı olsa da, yalnız bir qisminin qalıqları dövrümüzədək gəlib çatmışdır. XVIII əsrə aid olan bu körpünün aşırımları arasındakı məsafələr müxtəlifdir. Tağabənzər aşırımlar dördkünc formalı dayaq sütunlar üzərində inşa olunmuşdur. Körpünün eni 3,3 metr, uzunluğu isə 55 metrdir. Körpü əhəng məhlulu ilə irihəcmli çay daşları və qaya parçalarından hörülmüş, yonulmuş daşlarla üzlənmişdir.

Ordubad rayonunun Bist kəndinin qərb tərəfindən axan Əlahi çayı üzərində salınmış ikitağlı *birinci Bist körpüsü*nün tikintisində həm daş, həm də kərpicdən istifadə olunmuşdur. Körpünün I Şah Abbas dövründə inşa olunması haqqında fikirlər var.

*İkinci Bist körpüsü* isə kəndin cənubşərqində Nəsirvaz çayı üzərində salınmış tarixi-memarlıq abidəsidir. Birtağlı olan bu körpünün uzunluğu, təqribən, 23, hündürlüyü 10, eni isə 4 metrə yaxındır. Körpünün salınmasında məqsəd kəndə gediş-gəlişi təmin etməklə yanaşı, ticarət karvanlarının hərəkətini asanlaşdırmaq olmuşdur. Cənub tərəfdə, daşın üzərində 1869-cu il tarixi yazılmışdır. Tikinti texnikasına görə o, birinci Bist körpüsü ilə oxşarlıq təşkil etsə də, ondan sonrakı dövrdə inşa olunmuşdur. Naxçıvan Abidələri Ensiklopediyasında qeyd olunur ki, böyük ehtimalla körpü 1869-cu ildə təmir edilmişdir. Körpü XVII-XVIII əsrlərə aid olunur.

Ordubad rayonunda daha bir tarixi körpü isə Əlahi kəndinin yuxarı hissəsində, *Əlahi* çayı üzərindəki tarixi-memarlıq abidəsidir. Körpü ikiaşırımlı və çatmatağlıdır. Kobud şəkildə yonulmuş boz dağ daşından inşa edilmişdir. Tikilinin uzunluğu 30, eni 3, hündürlüyü isə 6,5 metrdir. Körpünün qərb oturacağı qaya üzərində hörülüb. XVIII-XIX əsrlərə aid edilən bu körpü hazırda kənd əhalisinin istifadəsindədir.

*Məzrə körpüsü* də Ordubad rayonu ərazisində, Düylün çayı üzərində yerləşən memarlıq abidəsidir. Körpü Məzrə kəndindən şimal-şərqdə yerləşir. Körpünün bir hissəsinin qalıqları indiyədək qalmışdır və tikintisində yonulmuş qaya parçalarından və bərkidici məhlul kimi əhəngdən istifadə olunmuşdur. Bu memarlıq abidəsi Məzrə kəndinin Urmus, Üstüpü və digər kəndlərlə əlaqə saxlamasına imkan vermişdir. Tikinti texnikasına əsasən XVII-XVIII əsrlərdə tikildiyi ehtimal olunur.

Daha bir memarlıq abidəsi – *Üstüpü körpüsü* də öz əhəmiyyəti ilə seçilən körpülərdəndir. Düylün çayı üzərində yerləşən bu körpünün uzunluğu 10 paqonometrdir. Abidənin XVIII əsrin sonu, XIX əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur. Yüksək inşaat texnikası səviyyəsində tikilmiş körpü milli memarlıq xüsuiyyətlərini və möhkəmliyini qoruyub saxlamışdır. Hörgüsündə adi yerli daşdan istifadə edilmişdir. 1996-cı ildə körpünün bərpası nəticəsində Məzrə və Üstüpü kəndlərindən magistral yola çıxış təmin olunmuşdur.

Ordubad rayonunda körpü sayına görə çoxluq Yuxarı Əylis kəndinin payına düşür. *I Yuxarı Əylis körpüsünün* qalıqları kənddən keçən Əylis çayının içərisindədir. Körpünün yalnız bir aşırımının qalıqları qalmışdır. Dayaq sütunu və tağın bir qismi qaya daşlarındandır. Əhəng məhlulundan istifadə olunmaqla inşa edilmişdir. Xalq arasında Şah Abbas körpüsü adlanır. Tikili XVI əsrə aiddir.

*II Yuxarı Əylis körpüsü* də Yuxarı Əylis kəndində Əylisçay üzərində tarix-memarlıq abidəsidir. Orta əsr Əylis bazarına yaxın olduğu və gələn ticarət karvanları bu körpüdən bazara daxil olduğu üçün bəzən "Bazar körpüsü" də adlandırılır. Körpünün yerləşdiyi Qarabağ məhəlləsi Zəngəzur mahalından bura gələnlərin adı ilə bağlıdır. Bundan yuxarı Xoşkeçin məhəlləsi yerləşir ki, bu məhəllənin adı da "Körpüdən xoş keçin" arzusundan yaranmışdır. Hazırda təhrif olunaraq "Xoşkeşin" və ya "İşkeşin" şəklində işlədilir. Körpü ağ rəngli dağ daşından inşa olunmuşdur. Orta əsrlərdə Ordubad, Əndəmic, Əylis istiqamətində hərəkət edən ticarət karvanları bu körpüdən keçərək Əylis bazarına daxil olurmuş. Burada dincələn və alver edən tacirlər Vənənd istiqamətində irəliləyərək yollarına davam edər, orta əsrlərdə Vənəndçayın üzərində salınan, ancaq indiyədək elmə bəlli olmayan Vələver kəndi ilə Başkəndi birləşdirən körpüdən keçərək qərbə doğru gedərmişlər.

*III Yuxarı Əylis körpüsü* isə kəndin içərisindəki dərənin üzərindən keçmək üçün inşa olunmuşdur. Birtağlıdır. Uzunluğu 9, eni 3,2, hündürlüyü 9 metrdir. Tağın kənarları yonulmuş daşlarla bəzədilmişdir. Memarlıq üslubu XVIII əsr abidələri üçün xarakterikdir. Körpü XVIII-XIX əsrlərə aid edilir.

*IV Yuxarı Əylis körpüsü* də Əylis çayının qollarının birinin üzərində salınmışdır. Birtağlı körpünün memarlıq üslubu XVIII-XIX əsrlər üçün xarakterikdir. Körpünün tağı kənarlarda yonulmuş daşlarla inşa edilərək əhəng məhlulu ilə bərkidilmişdir.

Culfa rayonu da tarixi körpüləri ilə seçilən bölgələrimizdəndir. Belə körpülərdən biri – *Qazançı körpüsü* Qazançı kəndindən şimalda, Əlincəçay üzərində inşa edilmiş tarixi-memarlıq abidəsidir. Körpü xalq arasında "Qozbel körpü" adı ilə də məşhurdur və XVI-XVII əsrlərdə Şərq memarlıq üslubunda tikilmişdir. Böyük İpək Yoluna xidmət edən bu körpü vasitəsilə vaxtilə Qazançı kəndinin şərq istiqamətində uzanan və Ordubad ərazisində əsas yola birləşən karvan yolları keçmişdir. Körpü nisbətən yaxşı qalsa da, nəqliyyat üçün yararsızdır. Bununla belə o, Azərbaycanın biraşırımlı körpülərinin ən yaxşı nümunəsi sayılır. Körpünün eni 3,55 metr, uzunluğu 10,85 metr, hündürlüyü isə 8,8 metrdir. Körpü azca yonulmuş çapma daşlardan tikilmişdir. Tağları haşiyəli və təmiz yonulmuş qumdaşındandır.

*Ləkətağ körpüsü* Culfa rayonunun Ərəfsə kəndindən şimal-şərqdə Əlincəçayın üzərində orta əsrlərə aid memarlıq abidəsidir. Körpü Əlincə çayının sol sahilində olan kəndləri Culfa rayonunun digər kəndləri ilə əlaqələndirmişdir. Azərbaycan Elmlər Akademiyası Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası bu ərazidə işləyərkən körpünün ölçülərini və fotosunu götürmüşdür. Körpü tağvarı formada olub, müxtəlifhəcmli çay və dağ daşlarından tikilmişdir. Onun tağı kənarlarda yonulmuş ağ daşlardan, ortada isə müxtəlif çay daşları ilə hörülmüşdür. Bərkidici maddə kimi iri qum və əhəng qarışığı olan gəcdən istifadə edilmişdir. Aşağı hissədə körpünün eni 7 metrdir. Onun hündürlüyü daş özülə qədər 5, çaya qədər 6,5 metrdir. Körpünün eni 2,7 metrdir. Onun üst hissəsi tamamilə uçub dağılmış, tağı isə uçmaq üzrədir. Belə hesab etmək olar ki, orta əsrlərdə Əlincəçay vadisi ilə uzanan yol Ərəfsə kəndinin yaxınlığında çayın sol sahili boyunca davam etmişdir. Tikinti texnikasına əsasən körpünü XVI-XVII əsrlərə aid etmək olar.

*Şah Abbas körpüsü* Culfa rayonunun Gülüstan kəndinin qərbində, Gülüstan körpüsündən 500 metr yuxarıda, Araz çayının üzərində tarixi-memarlıq abidəsidir. Körpünün qalıqlarına xalq arasında "Şah Abbas küləfrəngisi" də deyirlər. Hazırda körpünün yalnız iki dayaq sütununun müəyyən hissəsi qalmışdır. Sütunlardan biri çayın ortasındakı qayanın üzərində, digəri isə sol sahildəki dəmiryol xəttinin altında qalmışdır. Qırmızı qum daşından tikilən dayaq sütunun üzlük daşları düşmüşdür. Aşırımlar arasındakı məsafə əraziyə uyğun olaraq müxtəlif olmuşdur. Körpünün qalıqlarını XVI-XVII əsrlərə aid etmək olar.

*Dədəli körpüsü* isə Şərur rayonunun ərazisində, Arpaçay üzərində salınmış birtağlı körpüdür. Körpünün uzunluğu 30 metr, eni 4 metr, mərkəzdə suyun səthindən hündürlüyü 12 metrdir. Onun sol tərəfinin özülü sahildəki sağ daşın üstündə, sol tərəfinin özülü isə 2 metr dərinlikdə qoyulmuşdur. Orta əsr körpülərinin memarlıq üslubunda inşa olunmuş körpünün XIII əsrdə tikildiyi ehtimal olunur.

*Bəli, orta əsr çağlarında tikilmiş bu körpülər tarixi-memarlıq abidələri kimi böyük əhəmiyyət kəsb edir. Keçmişdə olduğu kimi, müasir günümüzdə də onların bir çoxundan istifadə olunur.*

**✍ Səbuhi HƏSƏNOV**

*Axtarışlar, tapıntılar*

## Maarif carçısı – *Abbasqulu bəy Kəngərli*

*Naxçıvan Muxtar Respublikasının maarifçilik tarixi çox qədim və zəngindir. Naxçıvanda xalq maarifi işinin təbliği və inkişafında xidmətləri olanlardan, eləcə də xalq maarifinin ilk təməl daşını qoyanlardan biri də Abbasqulu bəy Mahmud ağa oğlu Kəngərlidir.*

2004-cü ildə Sankt-Peterburqda Rusiya Dövlət Tarix Arxivində elmi axtarışlar apararkən 1349-cu fondda Abbasqulu bəyin xidmət kitabçasını tapdım.

Üz qabığında belə yazılmışdı: İkisinifli Şahbuz məktəbinin nəzarətçisi Abbasqulu bəy Mahmud ağa oğlu Kəngərlinin xidməti haqqında.

Bu xidmət kitabçası 23 iyul 1910-cu ildə tərtib edilmişdir. Həmin xidmət kitabçasında olanları yazmazdan əvvəl Abbasqulu bəyin atası və babaları haqqında, azacıq da olsa, məlumat vermək maraqlı olardı.

Abbasqulu bəyin atası Mahmud ağa (1821-1883) məşhur hərbçi Novruz ağanın oğlu, Naxçıvan xanlığının qoşun rəisi Hacı Lütfəli Sultanın nəvəsidir. Mahmud ağa 1848-ci ildə general-mayor Kalbalı xan Kəngərli-Naxçıvanskinin rəhbərliyi altında Naxçıvan milisi dəstəsinin tərkibində Dağıstanın Gergebil aulu (kəndi) ətrafında döyüşmüşdür. Bu döyüşlərdə o, praporşik, sonralar isə podporuçik hərbi rütbələrini almışdır. Naxçıvana qayıtdıqdan sonra Ordubadda torpağı mühafizə idarəsində rəis işləmişdir. 1866-cı ildə xəstəliyi ilə əlaqədar olaraq tutduğu vəzifədən azad edilmiş və Naxçıvan şəhərində yaşamışdır. Ona göstərdiyi xidmətlərə görə Kırna kəndi tiyul olaraq verilmişdir.

Abbasqulu bəy Mahmud ağa oğlu 1865-ci ildə Naxçıvan şəhərində doğulmuşdur. O, Naxçıvan şəhər məktəbində təhsil almış və 1885-ci ildə oranı bitirmişdir.

18 may 1888-ci ildə İrəvan Quberniya İdarəsinin qərarı ilə Naxçıvan Şəhər Polis İdarəsində ikincidərəcəli dəftərxana xidmətçisi vəzifəsinə təyin olunmuşdur. Qeyd edək ki, onun polis idarəsində xidməti haqqında ətraflı məlumat tarix elmləri doktoru Fəxrəddin Cəfərovun "Qəza polisi" kitabında dərc edilmişdir. 1892-ci ildə isə öz ərizəsi əsasında işdən azad olunmuşdur.

Bir müddətdən sonra o, İrəvan xalq məktəblərinin direktorunun təyinatı ilə 1899-cu ildə Ordubad mahalının Vənənd birsinifli məktəbinə nəzarətçi təyin olunmuş və 1903-cü ilədək orada işləmişdir.

1903-cü ildə onu Naxçıvan şəhərinin yaxınlığında yerləşən Yamxana kəndinin məktəbinə ikinci müəllim təyin etmişlər. Abbasqulu bəy Kəngərli 1904-cü ildə Əbrəqunus kəndindəki birsinifli məktəbdə pedaqoji fəaliyyətini davam etdirmişdir.

Bütün fəaliyyətini maarifə həsr edən Abbasqulu bəyi 1906-cı ildə vaxtilə oxuduğu Naxçıvan şəhər rus-tatar (Azərbaycan) məktəbinə müəllim təyin etmişlər. 1909-cu ildə o, Naxçıvan şəhərində imtahan verib ikisinifli məktəblər üçün müəllimlik diplomu almışdır. Elə həmin ildə onu Naxçıvan diyarının ən nümunəvi məktəblərindən birinə – Şahbuzkənd ikisinifli məktəbə nəzarətçi-müəllim vəzifəsinə təyin etmişlər. (Əmr №3213).

Məlumat üçün deyək ki, Şahbuzkəndin olduqca maraqlı tarixi vardır. Hələ 1830-cu ildən sonra sənədlərdə Dərəşahbuz adı ilə yazılan bu kənd mərkəz rolunu oynamışdır.

I Ehsan xana aid olan sənədlərə əsasən demək olar ki, o, 1830-cu ildən ömrünün sonuna kimi, yəni 1846-cı ilədək verdiyi əmrlərin çoxunun altında Dərəşahbuz adını qeyd etmişdir.

I Ehsan xan 1840-cı ilədək Naxçıvanın naibi olmuş, 1840-cı ildən isə Naxçıvan Kəngərli süvari dəstəsinin atamanı vəzifəsini daşımışdır.

O vaxtlar Dərəşahbuz mərkəz olmaqla bərabər, həm də Naxçıvan xanlarının və onların varislərinin yay seyrəngahları olmuşdur. Hətta son illərə qədər Cəfərqulu xan Naxçıvanski-Kəngərlinin orada buxarnası qalırdı.

Çox mühüm strateji ərazidə yerləşən bu kəndin yaxınlığında tarixlər şahidi olmuş Şapur qalası da vardır.

Hələ çar Rusiyasının hakimiyyəti dövründə, 1896-cı ildə Dərəşahbuzda (indiki Şahbuzkənddə) üçsinifli rus-tatar məktəbi açılmışdır. Bu məktəb yeni üsullu məktəb adlanırdı. Sənədlərə əsasən demək olar ki, bu məktəbi yaradan və ilk müdirlik edən Qoridəki Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmiş Mirzə Məhəmməd bəy Zamanbəyov (Zamanov) – Kəngərli olmuşdur. Onun haqqında əvvəlki yazılarımızda ətraflı bəhs etmişik.

Sonralar bu məşhur elm ocağına Qori Müəllimlər Seminariyasının məzunları Mirzə Sadıq Xəlil oğlu Xəlilov və Mirzə Nəsrulla Xudaqulu oğlu Quliyev rəhbərlik etmişlər. Maraqlıdır ki, cəmi 28 il ömür sürən Mirzə Nəsrulla Quliyev gənc olsa da, çox nümunəvi müəllim kimi tanınmışdır. Onun pedaqoji fəaliyyəti unudulası deyil. Yəqin ki, bu mövzuya təkrarən qayıdacağıq. Abbasqulu bəyin xidmət kitabçasından məlum olur ki, o, 1909-cu ildə belə nümunəvi məktəbdə əvvəlki ənənəni – yaxşı təlim-tərbiyəni qoruyub saxlaya bilmişdi. 1910-cu ilin məlumatına əsasən, o, ildə 450 rubl əməkhaqqı alırmış.

*Abbasqulu bəyin 1910-cu ildən sonra pedaqoji fəaliyyəti haqqında məlumatlara rast gəlinir. Amma sonrakı pedaqoji fəaliyyəti tədqiq edilmədiyindən onun pedaqoji işi haqqında ətraflı heç nə demək olmur. Öz ömrünü Naxçıvanda maarifin inkişafına həsr edən və ucqar kəndlərdə müqəddəs müəllimlik adını uca tutan Abbasqulu bəy Kəngərlinin maarifçilik tariximizdə silinməz izi vardır.*

**Musa QULİYEV**
*AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

# Bu gün axır çərşənbədir

***Xalq təqvimindəki boz ayın dörd çərşənbəsi müqəddəs sayılmış və təbiətin dəyişməsində dörd ünsür – su, yel, torpaq və od mühüm rol oynamışdır. Xalq yaradıcılığında bu ayın dörd çərşənbəsinin hər biri ilə bağlı müxtəlif ayin, etiqad, inanc və mərasimlər mövcuddur. Boz ayın dördüncü çərşənbəsi od çərşənbəsidir. Od çərşənbəsi əski görüşlərlə bağlı olub, Günəşə, oda, odu qoruyub saxlamaq inamına tapınma, od kultu ilə əlaqəli yaranmışdır. Hələ çox-çox əvvəllər insanlar təbiəti canlandıran, torpağı isidən Günəşi, onun yerdəki rəmzi odu təsəvvürlərində müqəddəsləşdirmişlər. Əski zamanlarda insanlarda belə bir inam yaranmışdır ki, onlar odu nə qədər əzizləsələr, oxşasalar, təbiət o qədər tez isinər, adamlara xoşbəxtlik gətirər.***



Xalq arasında olan inama görə, kiçik çillədən sonrakı ilk çərşənbədən başlayaraq Novruz bayramına qədərki hər çərşənbədə təbiətdə müəyyən dəyişikliklər baş verir. Toplanmış etnoqrafik materiallara əsasən demək olar ki, həmin dəyişikliklərə uyğun olaraq Naxçıvanda hər çərşənbənin xalq arasında ayrıca adı vardır. Həmin adlar bölgələr üzrə fərqlənsələr də, birinci çərşənbə əzəl, yalançı çərşənbə, ikinci xəbər, külə çərşənbə, üçüncü quyruqlu, qara çərşənbə, dördüncü axır (ilaxır) çərşənbə adlanır. Üç çərşənbədə Ordubadın bəzi kəndlərində axşamüstü od yandırılır, axır çərşənbə isə çox təntənəli qeyd edilir. Sonuncu çərşənbə od çərşənbəsi olsa da, xalq arasında, əsasən, buna ilin axır çərşənbəsi, ilaxır, baca-baca, yeddiləvin deyilir.

Xalq arasında olan inama görə, axır çərşənbə Novruz ilə üst-üstə düşərsə, həmin il uğurlu olar. Həmin gündə bir sıra vacib məsələlərə əməl edilir: hər kəs evində olmağa çalışır, qız-gəlinlərə pay göndərilir, bayram süfrəsi açılır, bir sıra şirniyyat və yeməklərlə yanaşı, mütləq plov bişirilir. Xalq arasında plov ilaxır çərşənbənin rəmzi sayılır.

İlaxırda əsas adətlərdən biri həmin gün tonqal qalanmasıdır. Yurdumuzun hər yerində, el dili ilə desək, qaş qaralan vaxtı damların üstündə, evlərin həyətində tonqal qalanır, bütün ailə odun ətrafında toplaşır. Yandırılmış odun üstündən "ağırlığım, uğurluğum, dərdim, bəlam bu oda tökülsün" deyib tullanırlar. İnama görə, odun üstündən tullanan şəxs ilboyu xəstələnməz, dərd, qəm ondan uzaq durar. İlaxır çərşənbəsində yandırılan tonqalın tüstüsü arana gedərsə, aranda, dağlığ tərəfə gedərsə, dağlıq ərazidə, əgər düz yuxarı qalxarsa, hər tərəfdə həmin il bolluq olacağına inanırlar. Axır çərşənbədə hər bir ailə çalışır ki, yandırdığı tonqalın alovu hündürə qalxsın. Bunun ailəyə uğur gətirəcəyinə inanırlar.

Yandırılmış odun külünü götürüb bolluq, bərəkət rəmzi olaraq əkin sahələrinə, toyuq-cücələrin üstünə, mal-heyvanın altına səpirlər. Şər qüvvələrdən qorunmaq, onları qovmaq üçün ilaxır tonqalının külündən evin dörd küncünə qoyurlar. Kəngərli rayonunun bəzi kəndlərində odun külünün üstünü torpaqla örtürlər ki, külək onu (odun külünə bərəkət kimi baxırlar) dağıtmasın.

Axır çərşənbədə hər kəsin evində plov süzülür, ləziz yeməklər hazırlanır, xonça bəzədilir. Bayramda süfrələri paxlavasız, halvasız, şəkərburasız, badamburasız təsəvvür etmək mümkün deyil.

Axır çərşənbə yeməyini bir az erkən bişirirlər, çünki bəzi yaxın adamlara, əsasən, ailənin evli qız və oğlanlarına pay göndərirlər. Toplanmış materiallara görə ata və qardaş evindən pay təkcə təzə gəlinlərə deyil, yaşlı, hətta nəvəsi olan qızlara, qardaşlara, bacılara da göndərərlər. Deyərlər ki, qızın gözü ata ocağında olar. Bu yeməyə xalq arasında pay plov deyilir. Ordubad rayonunun bir sıra kəndlərində ilin axır çərşənbəsində yeddi evə yemək aparıb həmin evdən pay alırlar. Bu, xalq arasında "qapı-qapı" adlanır.

Kəngərli rayonunun Qarabağlar kəndində, Qıvraq qəsəbəsində ilaxır aşının düyüsündən götürüb ağacların koğuşuna qoyurlar ki, barlı olsun. Oxşar inama görə, aşın yağından bar verməyən ağacların budaqlarına da sürtərlər. Şadlıq, yasdan çıxma rəmzi olaraq bar verməyən ağacların dibinə həmin günü xına basdırmaq, qırmızı parça bağlama adəti də mövcuddur.

Axır çərşənbə adətlərindən biri də yumurta döyüşdürülməsidir. Yumurta döyüşdürülməsi zamanı kimin yumurtası qırılarsa, o, öz yumurtasını qarşı tərəfə verir. Əsas maraqlı adətlərdən biri də həmin gündə yumurtaların qırmızı rəngə boyanılması, insanların bir-birini boyanmış qırmızı yumurta ilə təbrik etməsidir. Topladığımız materiallara görə, yumurta verilməsi sahibinə və ailə üzvlərinə cansağlığı diləməkdir, çünki yumurta artıb çoxalmaq, həyatın əmələ gəlməsi kimi başa düşülür.

Axır çəşənbədə od yandırdıqdan sonra hər kəs süfrə başında əyləşir. Xalq arasında olan inama görə, həmin gün evində olmayan sonrakı yeddi il də evində olmayacaq. Ona görə də hər kəs çalışır ki, həmin gün evində olsun. Axşam düşdükdə oğlan uşaqları evlərə papaq, torba atır, qızlar isə qulaq falına çıxır, niyyət edib qapı pusurlar. Ev yiyələri də çalışırlar ki, həmin günü xoş sözlər danışsınlar. Bu vacib əməllər gecəyarısına qədər davam edir. Qapıpusdu adətinə bəzi yerlərdə "kilidsalma" da deyirlər.

Xalq arasında yaşadılan ən maraqlı adətlərdən biri də axır çərşənbənin səhəri günü Günəş çıxmamışdan su üstə getmək adətidir. Bəzi bölgələrdə bu adət "novbaşı" adlanır. İlk növbədə, insanlar səhər tezdən bulaq kənarına, nov başına gedər,



suyun üstündən "ağırlığım, uğurluğum odlara, dərdim-bəlam bu suya tökülsün" deyib tullanarlar. Su üstündən tullananda "Allahım, ruzimizi bol eylə" deyib suya buğda atarlar. Şahbuz bölgəsinin bəzi kəndlərində isə "İlahi, qohumların, ailəmizin ağzını şirin eylə" deyib suya kişmiş atarlar. Əl-üzlərini yuyar, sudan bir az da içərlər. İnama görə, bu su dərdlərin dərmanıdır, içən xəstələr şəfa tapar. "Çərşənbə suyu"ndan insanlar arasında bir-birinin üstünə çiləmə adəti də (çiləşmə) icra olunur. Əski Çin mənbələrinə görə, Qoali (Faoli) adlı türkdilli qəbilələr baharda suya tapınma əlaməti olaraq xüsusi ayin icra edirmişlər. Onların xaqanı bahar bayramı ayinindən, təntənəsindən sonra dərhal paltarlı suya girərmiş.

Su aydınlıq, paklıq, təmizliyə çıxmaqdır. Həmin gün evdə bütün su qablarını boşaldıb yerinə "çərşənbə suyu" doldururlar. Sudan çörək bişirmək üçün xəmrə tuturlar. "Çərşənbə suyu"ndan gətirib bir gün saxlayıb, sonra əkin sahəsinə səpirlər. Bolluq-bərəkət, artıb-çoxalmaq rəmzi olaraq götürülən sudan əkin sahəsinə səpiləcək toxumun, mal-heyvanın üstünə də çiləyirlər. Həmin sudan evə, həyətə səpməklə yanaşı, qonşu və qohum evlərinin damına çıxar, onların bacasından da içəri tökərmişlər. Bu, "ili aydınlıqda keçirəsən" anlamında olub, yeni ilin bərəkətli olması arzusunu bildirir. "Çərşənbə suyu"ndan Novruz bayramı günü yandırılan tonqalın külünün üzərinə səpirlər ki, həm ürəklər sərinləsin, həm də şər qüvvələr evdən kənarlaşsınlar. Sudan gələn ilin axır çərşənbəsinə qədər saxlamaq adəti vardır. Onunla boğazı ağrıyan uşaqların boğazını ovurlar, eyni zamanda çox az miqdarda xəstələrə içirirlər. Bulaq üstünə gedən qız-gəlinlər bulağın gözündən yeddi daş götürürlər. Şərur bölgəsində isə "övlad, dövlət, bərəkət" deyib əyilib sudan üç daş götürərlər. Götürülən daşları yağ küpələrinə, unluqlara, pul kisələrinə qoyurlar ki, bərəkətli olsun. Başqa bir adətə görə isə çör-çöp yığıb, mal-qaranın, bişirilən südün altında yandırırlar ki, ruzi-bərəkətli olsun.

Bu adətlərdə əcdadlarımızın su, külək, torpaq, od kultuna tapınmasının izləri açıq-aydın görünür. Axır çərşənbələrdə əzizlənən bu müqəddəs ünsürlərə Azərbaycan türkləri və bütün Türk dünyası qədimdən etiqad etmiş və inanmışlar. Mərasim, şənlik varolmadan, bütövləşmədən sonra baş verir ki, bu da ilaxırdadır. İlin axır çərşənbəsi olsa da, hələ il başa çatmayıb. Ona görə də axır çərşənbə nə qədər təntənəli keçsə də, ona bayram deyilmir. Novruz isə bu təntənələrin zirvəsi, ilin təhvil-təslimi, yeni günün başlanması bayramıdır. Xalq təqvimi dərindən araşdırıldıqca onun elmi əsaslara söykəndiyi, xalqımızın milli kimliyi, düşüncə tərzi ilə bağlılığı ortaya çıxır.

**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

---

***İstedadlı uşaq və gənclərin aşkara çıxarılmasında, onların həvəsləndirilməsində, təlimdə sağlam rəqabətin yaradılmasında fənn olimpiadaları müstəsna rol oynayır.***

## Olimpiadanın yarımfinal turunda 351 şagird biliyini sınayıb



Muxtar respublikanın ümumtəhsil məktəblərində ayrı-ayrı fənlər üzrə olimpiadalarda iştiraka layiq şagirdlər seçilir və onların hazırlığına nəzarət gücləndirilir. Bu cür bilik olimpiadaları məktəblərin fəaliyyətinin əsas meyarlarından biri kimi dəyərləndirilir.

Martın 13-də muxtar respublika ümumtəhsil məktəblərinin IX-XI siniflərində təhsil alan, fənn olimpiadalarının rayon (şəhər) mərhələsində hər sinif üzrə ilk 3 yeri tutmuş şagirdlərin iştirakı ilə fənn olimpiadalarının respublika mərhələsinin yarımfinal turu keçirilib.

Üç zonada (Naxçıvan şəhəri, Culfa və Şərur rayonları) keçirilən yarımfinal turunda 8 fənn (Azərbaycan dili və ədəbiyyatı, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya və informatika) üzrə 351 şagird biliyini sınayıb.

İştirakçılara fənlərdən asılı olaraq qapalı test formasında 30-40 sual təqdim edilib və cavablandırmaq üçün 3 saat vaxt ayrılıb. Nəticələrin qiymətləndirilməsi məqsədilə cavab kartları fənn olimpiadalarının respublika təşkilat komitəsinə göndərilib.

**Xəbərlər şöbəsi**

---

## Karateçilərimiz daha 4 medal qazanıblar

***Bakı şəhərində keçirilən karate-do üzrə uşaqlar və yeniyetmələr arasında Azərbaycan açıq çempionatına yekun vurulub.***



Azərbaycan Milli Karate Federasiyasının təşkil etdiyi çempionatda ölkənin bütün regionları ilə yanaşı, İran İslam Respublikasının da 3 komandası iştirak edib. Bu çempionatda Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 5 yetirməsi mübarizə aparıb və onlar 4 müxtəlif əyyarlı medal qazanıblar.

Komandamızın heyətində ən uğurlu nəticəni 14-15 yaşlılar arasında mübarizə aparan Sərcan Məmmədov əldə edib. 52 kiloqram çəki dərəcəsində bütün rəqiblərini üstələyən idmançımız Azərbaycan çempionu adını qazanıb. Bu yaş qrupunda 57 kiloqram çəki dərəcəsində mübarizəyə qoşulan Murad Ələkbərov isə finala gedən yolda məğlubiyyətlə üzləşib, çempionatı üçüncü pillədə başa vurub. 11 yaş qrupunda 37 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan Vüsal Seyidov yalnız həlledici görüşdə məğlub olaraq çempionatı ikinci pillədə başa vurub. 9 yaş qrupunda 35 kiloqram çəki dərəcəsində mübarizə aparan Məhəmməd Şıxəlili isə üçüncü olub.

İdmançılarımıza diplom və medallar təqdim edilib.

## "Şahin" hərbi-idman oyunları keçirilib

***Naxçıvan şəhər tam orta məktəblərin komandaları arasında keçirilən "Şahin" hərbi-idman oyununa yekun vurulub.***

Tədbirin açılış mərasimində çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik-leytenant Zaur Həmidov, Naxçıvan Şəhər Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin əməkdaşı Elxan Seyidov gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi haqqında danışıb, şahinlərə uğurlar arzulayıblar.

Yarışda 16 tam orta məktəbin komandası mübarizə aparıb. Hərbi-idman oyununda komandalar sıra hazırlığı, darağa patron doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, maneələrin dəf olunması, mülki müdafiə hazırlığı və qərargah çadırının qurulması mərhələləri üzrə öz qüvvələrini sınayıblar. Nəticəyə əsasən, 1 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərini üstələyərək qalib adını qazanıb. 15 nömrəli tam orta məktəbin komandası ikinci, 16 və 2 nömrəli tam orta məktəblərin komandaları isə üçüncü yerə layiq görülüblər. Qalib komandalar təşkilatçılar tərəfindən diplom, fəxri fərman və kuboklar ilə mükafatlandırılıblar.

Qeyd edək ki, birinci və ikinci yerlərin qalibləri olan 1 və 15 nömrəli tam orta məktəblərin komandaları aprel ayında keçiriləcək Naxçıvan Muxtar Respublika zona birinciliyində Naxçıvan şəhərini təmsil edəcəklər.

* * *

Ordubad rayonunda yerləşən "N" hərbi hissədə rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsinin birgə təşkilatçılığı ilə "Şahin" hərbi-idman oyununun rayon birinciliyi keçirilib. Birincilikdə 9 komandada 126 şagird iştirak edib.

Birinciliyin açılış mərasimində Gənclər və İdman İdarəsinin rəisi Əbülfəz Əliyev çıxış edərək iştirakçılara yarışın qaydaları haqqında məlumat verib.

Yekun nəticəyə əsasən, bütün rəqiblərini qabaqlayan Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbinin komandası birinci yerə layiq görülüb. Digər iki pillədə Ordubad şəhər 3 nömrəli və Dəstə kənd 1 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

İlk 3 pillədə qərarlaşan komandalara və yarışlarda fərdi surətdə fərqlənən şagirdlərə təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 213